UOT 2; 297; 297,18; 09

# ALLAHIN KÖVNİ ADLARININ TƏSƏVVÜFDƏ İZAHI (AZƏRBAYCAN ƏLYAZMALARI ƏSASINDA)

***Yeganə RƏHNULLA***[1],
*AMEA-nın Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun böyük elmi işçisi,*
*yegane.rahnulla@mail.ru*

***Xülasə.*** *Bütün səmavi dinlərdə olduğu kimi, İslam dinində də Allahın ad və sifətləri Quran ayələri və hədislərə əsaslanaraq geniş tədqiq olunur. Allahın bu atributları "Əsmaul-husna" termini altında cəm olaraq ilahiyyatın müxtəlif sahələrinin, əsasən də kəlam elminin əsas bölməsini təşkil edir. Kəlam elminin mübahisəli bölməsi olan ilahi sifətlər haqqında alimlərin biri-birindən fərqli fikirləri var. Bütün bu fikirləri cəmləşdirərək məşhur İslam alimi Əbu İsa ət-Tirmizinin "Əsmaul-husna" təsnifatı əsasında Allahın sifətlərini üç hissəyə: zatı adlar, kövni - yaradılışla, varlıqla bağlı adlar və insanla əlaqəli adlara ayırmaq olar. Bu məqalə özündə Sədrəddin əl-Konəvinin "Şərh əsma Allah əl-husna", Sədrəddin əş-Şirazinin "Təfsir əl-Quran" və müəllifi məlum olmayan "Şərh əsmallah" əsərlərinin Azərcaycanda saxlanılan əlyazma nüsxələri əsasında Allahın kövni adlarının dini-elmi təhlilini ehtiva edir.*

***AÇAR SÖZLƏR:*** *İslam, Quran, təsəvvüf, Əsmaul-husna (Allahın gözəl adları), kövni adlar.*

Егяна Рахнулла

# ОБЪЯСНЕНИЕ КАВНИ ИМЕН АЛЛАХА В СУФИЗМЕ (НА ОСНОВЕ АЗЕРБАЙДЖАНСКИХ РУКОПИСЕЙ)

***Резюме.*** *В исламе, как и во всех мировых религиях, имена и атрибуты Аллаха широко изучаются на основе хадисов и аятов из Корана. Эти атрибуты Аллаха, сгруппированные в религиозном термине «Асма аль-хусна», вместе образуют основной раздел различных теологических дисциплин, особенно богословия. Ученые расходятся во мнениях и имеют серьезные разногласия по поводу божественных атрибутов - противоречивой ветви богословия (калама). Обобщая все эти идеи, на основе классификации «Асма аль-Хусны» известного исламского ученого Абу Иса ат-Тирмизи атрибуты Аллаха можно разделить на три части: зати (существенные), кавни - связанные с созданием существованием, и имена, связанных с человеком. Эта статья содержит религиозно-научный анализ ряда кавни (связанные с созданием существованием) имен Аллаха, на основе, содержащихся в Азербайджане, рукописных копий «Шарх асма Аллах аль-Хусна» Садраддина аль-Конави, «Тафсир аль-Коран» Садраддина аш -Ширази и «Шарх асмаллах» неизвестного автора.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Ислам, Коран, тасаввуф (суфизм), Асма аль-хусна (прекрасные имена Аллаха), имена кавни (имена связанные с созданием существованием).*

1 ORCID ID 0000-0002-6564-7257

Yegana Rahnulla

# EXPLANATION OF THE NAMES OF ALLAH KAVNI IN SUFISM (ON THE BASIS OF AZERBAIJANI MANUSCRIPTS)

***Summary.*** *As in all monotheistic religions, the names and attributes of Allah are comprehensively studied on the basis of ayats and hadiths of the Quran. These attributes of Allah constitute the main branch of various theological fields, especially the science of discourse (science of kelam) under the religious term "asmaul-husna». Scholars have different opinions and serious disaccords about the divine attributes, a controversial branch of the science of discourse. Summarizing all these ideas, the attributes of Allah are divided into three parts – essential names, names related to creation, existence, and the names related to human being, according to the classification of the "Asmaul-husna" of Abu Isa at-Tirmizi, a famous Islamic scholar. This article contains the religious-scientific analysis of the manuscript copies of Sadraddin al-Konavi's work «Sharh asma Allah al-husna», Sadraddin al-Shirazi's work «Tafsir al-Quran» and the other one named "Sharh asmallah" by an unknown author, preserved in Azerbaijan.*

***KEY WORDS:*** *Islam, Quran, tasavvuf (sufism), Asma al-husna (beautiful names of Allah), names related to creation, existence*

**Məqalənin məqsədi.** Bu tədqiqatda məqsəd mövzu ilə bağlı əlyazmaları araşdırmaq, İslam dinində Allahın kövni adlarının elmi - irfani izahını orta əsrlərə məxsus əlyazma nüsxələrinə əsasən təqdim etməkdir.

**Tədqiqatın metodları.** Tədqiqatın elmi-praktiki metodlarından birincisi AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan əlyazmaların və onların kataloqunun, həmçinin kitabxana kartından ibarət kartotekada əlyazma və əski çap kitablarının araşdırılmasıdır. Ərəbdilli əlyazmalar kataloqunun dörd cildi, farsdilli əlyazmalar kataloqunun üç cildi, türkdilli əlyazmalar kataloqunun üç cildi, əski çap kitablarının kataloqları, eləcə də İnstitutda saxlanılan dünya əlyazma xəzinələrinin kataloqları tədqiqata cəlb edilmişdir. Bundan əlavə, mövzu ilə bağlı müxtəlif dillərdə yeni nəşrlər, internet və elektron resurslardan da geniş istifadə olunmuşdur.

**Elmi yeniliyi.** Azərbaycan dinşünaslığında Allahın adları tədqiq olunmadığına görə bu tədqiqat Azərbaycan ilahiyyatına yenilik gətirəcəkdir. Həmçinin, burada Allahın adlarının mənaları ilə bərabər, irfani izahının təqdim edilməsi ilahiyyat elminin daha da zənginləşməsinə təkan verəcəkdir. Tədqiqatın Azərbaycan əlyazmalarına əsasən araşdırılması dinşünaslıqla yanaşı, Azərbaycan mətnşünaslığına da töhfədir. Belə ki, Azərbaycanda saxlanılan Sədrəddin əl-Konəvinin əsərlərindən ibarət əlyazma məcmuəsi, Sədrəddin əş-Şirazinin dünya əlyazma xəzinələrində aşkarlanmayan, 1721-1724-cü illərdə köçürülən "Təfsir əl-Quran" və müəllifi bilinməyən "Şərh əsmallah" əsərlərinin yeganə əlyazma nüsxələri Azərbaycan mətnşünaslığında yeni cığır açacaqdır.

## Giriş

Səmavi dinlər arasında İslam dini tövhid inancının daha aydın şəkildə qavranması üçün Allahın ad və sifətlərinə xüsusi önəm vermişdir. Bütün bu ad və sifətlər "Əsmaul-husna" termini altında cəmləşərək Quranda dörd ayədə, eləcə də Məhəmməd peyğəmbərin (s) bu barədə məşhur hədisində bəyan edilmişdir. Bu ifadə Azərbaycan əlyazmalarında müxtəlif şəkildə yazılmışdır: Sədrəddin əl-Konəvinin əsərlərindən ibarət A-409 şifirli əlyazma məcmuəsinə daxil olan "Şərh əsma Allah əl-husna" əsərində "Əsma Allah əl-husna" [1, v. 90a], müəllifi bilinməyən B-4748 şifirli əlyazma məcmuəsində yerləşən "Şərh qəsideyi əsmaul-husna" əsərində "Əsma Allah təala əl-husna" [2, v. 79b], B-4751 şifirli əlyazma məcmuəsində yerləşən və müəllifi məlum olmayan "Şərh əsmaul-husna" əsərində "Əsma Allah əl-husna" [3, v. 178b], B-2195 şifirli əlyazma məcmuəsində yerləşən və müəllifi məlum olmayan "Şərh əsmallah" əsərində sadəcə "əsmallah" [4, v. 2b], əski əlifbada yazılan B-4944 şifirli əlyazma toplusunda yerləşən və müəllifi məlum olmayan "Fəsl fi əsmail-husna va ədədi hurufuha" əsərində adın özündə "Əsmaul-husna", mətndə isə "Əsmau husna", "Əsma Allah" [5, v. 104b] kimi verilmişdir. Göründüyü kimi, əlyazma əsərlərdə ilkin mənbə olaraq "Əsmaul-husna" ifadəsində "əsma" (ad) sözündən sonra "Allah" sözü yazılmış və mənası tam olaraq "Allahın gözəl adları" kimi verilmişdir. Lakin zaman keçdikcə bu ifadə dini terminə çevrilmiş, tələffüzü asanlaşaraq "Allah" sözü ixtisar olunmuşdur. Müasir çap kitablarında da bu ixtisara rast gəlmək olur. "Əsmaul-husna" ifadəsinin müxtəlif yazılış formalarını Eldar Kərimovun "Əsmayi-Hüsna (Allahın gözəl adları)" [6], Heydər Qənbərinin "İsmi əzəm və Əsmaül hüsna duaları" [7], Məhəmmədtəqi Müqtədirinin "Əsmaul-hüsna – Quranda Allahın gözəl adları" [8] və s. kitablarda görmək olur

Allahın ad və sifətləri ilahiyyatın bütün qollarında, eləcə də kəlam elmində geniş tədqiq olunmuşdur. Kəlam elminin mübahisəli bölməsi olan ilahi sifətlər haqqında alimlərin biri-birindən fərqli fikirləri və ciddi ixtilafları var. Allahın sifətləri məsələsi əqidələr arasında ən çox mübahisə doğuran mövzulardan biridir. Lüğətdə məsdər olaraq "bir varlığın keyfiyyətini, vəziyyətini və xüsusiyyətini göstərmək", isim olaraq isə "bir varlığın tanınmasına imkan verən vəziyyət və xüsusiyyət" mənasını bildirən "sifət" sözü termin olaraq "Allahı insanlara tanıdan keyfiyyət" və ya "Allahın zatına aid edilən məna və anlayış" kimi müəyyənləşdirilir. Quranda sifət sözü Allaha aid edilməmişdir, lakin müşriklərin politeist tanrı anlayışından bəhs edildikdə Allahın bu cür düşüncələrdən uzaq olduğunu bildirmək üçün "vəsf" anlayışından istifadə olunmuşdur. "Sifət" və "vəsf" sözləri lüğətdə eyni mənanı versə də, termin olaraq ayrı-ayrı mənalarda işlədilir. Kəlam alimləri üçün "sifət" sözü reallığı, "vəsf" sözü isə həm reallığı, həm də qeyri-reallığı bildirir. Bundan əlavə, Quranda Allahın gözəl adlarının (Əsmaul-husna) olduğu deyilir ("əl-Əraf", 180; "əl-İsra", 110; "Taha", 8; "əl-Həşr", 24). Hədislərdə isə sifət anlayışından açıq şəkildə bəhs edilir. Hədislərdən birində Məhəmməd peyğəmbər (s) dualarda Allahın izzətinə sığınmış, Onun bəndələrinə səsləndiyini və insanları görüb, dualarını eşitdiyini xəbər vermişdir. Həmçinin hədislərdə "zatullah" ifadəsi işlənmiş, elm, qüdrət, kəlam kimi sifət və feillər Allaha aid edilmişdir [9, c.27, s.101]. Göründüyü kimi, Quranda və İslam peyğəmbərinin hədislərində "sifət" sözünə rast gəlinmir. "Sifət" sözünü ilk dəfə Əhməd ibn Hüseyn əl-Beyhaqi (v.h.458/m.1066) mövzu ilə əlaqədar "əl-Əsma və əs-sıfat" əsərində istifadə etmişdir. Bəzi alimlər Allahı yaxından tanımaq üçün bəzən "əsma", bəzən isə "sifət" sözündən istifadə etmiş, bəziləri isə hər iki sözü sinonim kimi qəbul edərək eyni tutmuşlar.

Kəlam alimləri Əsmaul-husnaya daxil olan adları müxtəlif qruplara bölərək fərqli izahlar vermişlər. Bəzi alimlərin fikrinə görə, *"bu adlar Allahın zatına (mahiyyətinə) dəlalət etdikləri üçün xüsusi isim, mənalarına görə isə sifətlərdir (keyfiyyət və əlamət bildirən sözlərdir)"* [10, s.9].

Mövzu ilə əlaqədar olan əsərlərdə məşhur İslam alimi Əbu İsa ət-Tirmizinin Əsmaul-husna təsnifatı əsasında Allahın sifətlərinin üç hissəyə: zatı adlar, kövni (yaradılışla, varlıqla bağlı) adlar və insanla əlaqəli adlara ayrıldığını görmək olar [11, c.11, s.414-415].

Zatı adlar: ər-Rəhman, ər-Rəhim, əl-Quddus, əs-Salam, əl-Əziz, əl-Cabbar, əl-Mutəkəbbir, əl-Qahhar, əl-Alim, əs-Səmi, əl-Bəsir, əl-Xabir, əl-Əzim, əl-Əliyy (Əli), əl-Kəbir, əl-Cəlil, əl-Kərim, əl-Vasi, əl-Hakim, əl-Məcid, əş-Şəhid, əl-Haqq, əl-Qaviyy, əl-Mətin, əl-Həmid, əl-Muhsi, əl-Hayy, əl-Vacid, əl-Məcid, əl-Vahid, əl-Əhəd, əs-Saməd, əl-Qadir, əl-Muqtədir, əl-Əvvəl, əl-Axir, əz-Zahir, əl-Batin, əl-Mutəal, əl-Bərr, ər-Rauf, Zul Cəlali vəl ikram, əl-Ğəniyy, ən-Nur, əl-Baqi, əl-Varis, ər-Rəşid.

Kövni adlar: əl-Məlik, əl-Muheymin, əl-Xaliq, əl-Bari, əl-Musavvir, ər-Rəzzaq, əl-Qabid, əl-Basit, əl-Hafiz, əl-Muqit, əl-Bais, əl-Mubdi, əl-Muid, əl-Muhyi, əl-Mumit, əl-Qəyyum, əl-Muqəddim, əl-Muəxxir, əl-Vali, Məlikul-mulk, əl-Cami, əl-Muğni, əl-Mani, əd-Darr, ən-Nəfi, əl-Bədii.

İnsanla əlaqəli adlar: əl-Mumin, əl-Ğaffar, əl-Vəhhab, əl-Fəttah, əl-Hafiz, ər-Rafi, əl-Muiz, əl-Muzil, əl-Hakəm, əl-Ədl, əl-Latif, əl-Həlim, əl-Ğafur, əş-Şəkur, əl-Hasib, ər-Raqib, əl-Mucib, əl-Vədud, əl-Vəkil, əl-Vəliyy (Vəli), ət-Təvvab, əl-Muntəqim, əl-Afuvv, əl-Muqsid, əl-Hadi, əs-Sabur.

**Əsas mətn**

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Əsmaul-husna - Allahın gözəl adlarından bəhs edən 30-dan artıq əlyazma nüsxəsinin arasında Sədrəddin əl-Konəvinin “Şərh əsma Allah əl-husna”, Sədrəddin əş-Şirazinin “Təfsir əl-Quran” və “Şərh əsmallah” əlyazma nüsxələri tədqiqata cəlb olunmuşdur. Əl-Konəvi bu əsərdə hər bir adın lüğətdə izahını verəndən sonra اعلم انّ [Mən bunu bilirəm; həqiqətən bilirəm; bilinməlidir ki] ifadəsinin ardınca sufilərin kəşf və müşahidə biliklərinə əsaslanaraq varlıqların bu adlar vasitəsilə Allaha istinad etmə məsələsinin şərhinə geniş yer vermişdir. *“Təsəvvüf sahəsində kəşf – hicab və pərdənin götürülməsi və bir şeyin aşkar olması, hicab (pərdə) isə arxasında olan qeybi mənaların və həqiqətlərin aşkar olunması deməkdir. Kəşf fəhmin açarıdır. Müşahidə Haqqın qəlb aynasında görünməsi və müşahidəsidir. Müşahidə Haqqın yəqinlik dərəcəsidir və burada heç bir şübhə yeri yoxdur. Müşahidə Allahın birliyinə (tovhid) dəlalət edir”* [12, s.105,137]. Əş-Şirazi “Təfsir əl-Quran” əsərində Əsmaul-husnadan bəhs edən məşhur hədis və adların şərhindən sonra bu hissənin İbn Mələk adı ilə məşhur olan Əbdüllətif ibn Əbdüləziz Ruminin “Şərh əl-Məsabih” əsərindən olduğunu qeyd etmişdir. Bu əsərlər əsasında Əsmaul-husnaya daxil olan Allahın gözəl adlarının ikinci hissəsi - kövni adlar həm dini, həm də elmi cəhətdən təhlil olunacaqdır.

Əsmaul-husnaya daxil olan adların yaradılışla, xəlq etməklə, varlıqla bağlı hissəsi kövni adlanır. Kövn - yaranma və təşəkkül prosesidir. Allah yaradıcı sifəti ilə həm yoxdan (“əl-Ənam”, 101; “Yasin”, 82), həm də daha öncə var etdiklərindən yaradır (“əl-Əraf”, 189). O, görünən və görünməyən, bilinən və bilinməyən bütün varlıqları yaradandır. Onun yaratması davamlı və qeyri-məhduddur [13, s.166]. Bu adlar, eyni zamanda təkvini iradə və ya məşiyyət (iradə, təqdir) də adlandırılaraq bütün məxluqlara şamil olunur. Allah-Təala yaradılışla bağlı “ən-Nəhl” surəsinin 40-cı ayəsində buyurur: **“Biz hər hansı bir şeyi (yaratmaq) istədikdə ona sözümüz “Ol!” deməkdir...”** [14, s.239].

**Əl-Məlik** – hər şeyin tək sahibi, ibadət edənlərin qəlblərinə sahib olub, onları öz məlikliyi ilə əhatə edən, ariflərin qəlblərinə sahib olan və onları yandıran deməkdir. Əl-Məlik - icad və yaratma qabiliyyətinə sahib olan və istəyəndir. Deyilənlərə görə, bu adın digər mənası O, bəndələrini, əşyaları yaratma və icad etmə gücünə malikdir və bu ad Onun “xəlq etmə” ilə əlaqədar olan adlarından biridir [15, v. 279b].





**Əl-Muheymin** – nəzarət və mühafizə edən, öz qatında və mülkündə olan özünə aid hər şeyi, üzərində yerləşən hər şey ilə görən adil kimsə deməkdir. Əl-Muheymin الرقيب qorumaq sözünün mübaliğəsi olan مراقبة – nəzarət və hifz edən mənasındadır [15, v. 279b]. O, sirri və aşkarı bilən, şükrü və sirayəti eşidən, zərər və sıxıntıya əlac edəndir. Buna görə, bu məqamı görən öz halına nəzarət edər, vaxtını mühafizə edər, nəfəslərini sayar.

Allahın bəndələr üzərində bir çox haqqı vardır. Ucalığına görə təzim, əmrini yerinə yetirmək, ibadət etməyi buna misal gətirə bilərik. Bunun qarşılığında bəndələrin də Allah üzərində özünə vacib bildiyi, kəraminə qarşılıq bir neçə haqqı vardır. Bu barədə “əl-Bəqərə” surəsinin 40-cı ayəsində buyurulur: **“...buyruğumu yerinə yetirin ki, (sizi Cənnətə varid etmək barəsində) olan əhdə vəfa edim...”** [14, s.8]. Buna görə, Allahın bəndələri üzərindəki haqları: ibadətdə əmrini yerinə yetirmək, haramlardan çəkinmək, bəndənin haqqı isə dərəcələrin meydana gəlməsidir. Bu məqamda Allaha aid olanlar “zati”, bunun qarşılığında bəndə üçün isə “vədi”dir.

**Əl-Xaliq** – hər şeyi yerli-yerində yaradan, qüdrəti ilə varlıqları izhar edən (göstərən), iradəsi ilə bəzilərini bəzilərindən əvvəl var edən deməkdir. Əl-Xaliq - hər şeyi yoxdan yaradandır. O, icad etmək (yaratmaq) mənasında istifadə olunur [3, v. 280a]. Xəlq “təqdir” və “icad” olmaqla iki hissəyə ayrılır, əmr isə cəbərutdur. Buna görə də təqdir xəlqi, rəbbani əmrdir; bu əmr hər hansı əvvəlki və sonrakı deyil, varlığı əhədiyyətül-vücud (əhədiyyət Haqqın substansiya məqamına işarədir) olandır. Allahın “ol” sözü bu mərtəbədə yaranmışlarda var olanın qəbulunun özüdür. Bu mərtəbənin həqiqətlərinin sirayət etməsinin bir nəticəsi də xəyal qüvvəsinin əyan güzgüsünə əks olmasıdır. Çünki bu qüvvənin varlıq mərtəbəsində vucub (məcburi), imkan və imkansızlıq kimi təsərrüfləri vardır. Xəyal qüvvəsi bu mərtəbədə varlığı imkansız olan şeyi varlığı məcburi olana qatmışdır. Əhli-kəşf bu məsələni müşahidə edərkən müxtəlif fikirlər irəli sürmüşdür. Bəzi alimlər xüsusi varlıq ilə idrak edilən şeyin yoxluq vəziyyətindən varlıq vəziyyətinə çevrilməsini görürlər. Bir qrup alim isə varlığı dilə gətirər (söyləyər), hətta varlığa təəlluq edər (şöhrətləndirər). Bu təəlluq simaların güzgüyə əks olması kimi zühur təəlluqudur. Əyan isə adəmlik halında, sabit olduğu kimidir. Beləliklə, əyanlar bir-birini Haqqın varlıq güzgüsündə görürlər [1, v. 107b].

**Əl-Bari** – hər şeyi nümunəsiz fərqli forma və şəkillərdə yaradandır. Bu isim fail olub, bir-birindən fərqli müxtəlif şəkillərdə xəlq edən mənasındadır [15, v. 280a]. Əl-Xaliq əşyanın mənşəyidirsə, əl-Bari düşüncəsidir. Alimlər bu adın səltənətinin məhəllini və hökmlərin zühurlarını müşahidə edərkən onların kəşf və təhqiqatlarına uyğun olaraq fərqli fikirlər irəli sürmüşlər. Bəziləri bu adın əsərini, xüsusilə, ünsüri yer olmaqla bütün məxluqat üzərində görər, ülviliklərdəki təsirlərini görməzlər. Bu qrupdakı insanlara görə, bu ünsüri yerə məxsus məxluqatdan başqa bir məxluqat yoxdur. Bəziləri isə bu adın bütün təbiətdə ümumi təsərrüf sahibi olduğunu qəbul edirlər. Beləliklə, bu adın təsərrüf tərkibinə ülvi-ruhani, sufli-cismani bütün təbii görünüşlər daxildir. Bunlar: “heyulə kulli” mərtəbəsində zühur edib, varlığın “nihai” (insan) mərtəbəsinə qədər olan mərhələdir. Bunlardan kənarda qalan ləvh (insanı Haqqdan ayıran və batil sayılan hər şey), qələm (geniş bilgi və xilqətin ilk mərhələsi) və mələklər isə başqa məxluqata sahibdirlər.

**Əl-Musavvir** – hər şeyə forma verən, Həbanın maddələrinin xəzinə qapılarını surət (sima) açarları ilə açan mənasındadır. O, bütün varlıqlara xüsusi forma və onu digərlərindən fəqləndirən bir bədən verməklə ötə edəndir [15, v. 280a]. “Əl-Musavvir” - kəşf əhli və şuhudun (şahidlərin) könül bağçalarını təcəllilərini izhar etməsinin nuru ilə və ayələrinin gəlişlərinin



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

əsərləri ilə bəzəyən deməkdir. Allah zahirləri ümumi, batinləri isə xüsusi təsvir edər. Təsvir mərtəbəsi xəlq/yaratma mərtəbəsinin sonuncusudur. Bu mərtəbənin birincisi elmdir, xəlq isə elm və təsvir mərtəbələri arasında bir bərzəxdir. Eyni zamanda, insanın zühuru da yaradılışda cismanilik mərtəbələrinin axırıncısında yerləşdirilmişdir.

**Ər-Rəzzaq** – bütün məxluqatın (bitki, heyvan, insan) ruzisini verən deməkdir. O, ruzi xəlq edən, onu yaradılmışlara əta edən və onlara çatdırandır. Ruzinin iki növü var: zahiri olaraq bədənlərə yeyiləcək ərzaq, batini isə qəlb və nəfsə bilik, elm kimi verilən [15, v. 280a]. Ər-Rəzzaqın məxluqatını ruzi ilə təmin etməsində onların iman və ya küfr içində olub-olmamaları mühüm deyildir. Ruzi Allah-Təalanın bədənlərin fiziki olaraq ayaqda dayanması üçün yaratdığı, ya da başqa mənada yararlanılan şeydir.

Ruzi suri və mənəvi olmaqla iki cürdür. Suri ruzi cisimlərin fiziki olaraq ayaqda qalmasını təmin edir, onlar "kəsif" və "sufli" adlanırlar. "Fussilət" surəsi 10-cu ayədə bu barədə buyurulur: **"...(Allahdan ruzi) istəyənlər üçün bərabər olaraq orada yer əhlinin ruzisini dörd gündə (mövsümdə) müəyyən etdi"** [14, s.480]. Lətif və ülvi adlandırılan mənəvi ruzi isə ruhların ayaqda qalmasını təmin edir. Bu haqda "əz-Zariyat" surəsinin 22-ci ayəsində buyurulur: **"Göydə də ruziniz və vəd olunduğunuz şey vardır"** [14, s.531]. Bunların da hər birinin bir çox dərəcəsi vardır. Ruzinin xüsusiyyətləri və əsərlərinin nəticələri ruzi verilənlərin fərqliliyinə və mizaclarının şaxələnməsinə görə dəyişir.

**Əl-Qabid** – nemət və ruzini xüsusi ölçüyə salandır. Ölüm anında ruhları alan deməkdir. Əl-Qabid - əşyanın borclu olduğu kimsədir, "bütün yer üzü Ona borcludur" mənasını verir. قبض "Qabd/qabz" (almaq) sözündən əmələ gələrək bir pisliyin zühur etməsi və ya bir savab işin görülməsi ilə yaranan məlum borcdur. Xeyir və şər bəndəni sevindirən və kədərləndirən şeylərdir. Bu mövzu dünya və axirətdə bəndənin marağına uyğun olan iki haldan biridir. Bunlar iki vasitə ilə əmələ gəlirlər, onlar da "mələk" və "şeytan" adlandırılır. Xeyir və şər Allahın şənlərindən (işlərindən) olmaq etibarilə bir-birindən fərqli deyillər, qayəsinin uyğun olub-olmaması nöqtəsində, əsəbiləşən insanda bir-birindən ayrılırlar. Buna görə də şərin yayılması bast, xeyrin zühur etməsi isə qabdin özüdür.

Məlum borclardan biri də Allahın bəndələrindən borc tələbi, sədəqələri qəbul etməsidir. "Əl-Hədid" surəsinin 11-ci ayəsində buyurulur: **"Kimdir o kəs ki, Allah yolunda könül xoşluğu ilə borc versin, Allah da onun əvəzini artırsın?!"** [2, s.557]. Nəticədə bu borc və sədəqələr qat-qat artıq bəndəyə qayıdır. Çünki Allah onları özünə möhtac olduğu üçün yaratmışdır, O, bəndələrə möhtac deyildir.

**Əl-Basit** – genişlik verən, ruhları bədənlərə yerləşdirib yayan, barış və ehsanı çox olan, müəyyən bir ölçüyə görə ruzini yayan deməkdir, بسط "Bast" sözündən əmələ gələrək "yaymaq, genişləndirmək" mənasını verir. Əl-Basit zəiflərin dolanışığını asanlaşdırmaq üçün zənginlərdən sədəqə alır, onları zəkat və sədəqəyə çevirir [15, v. 279b]. Qabd (borc) həmişə özündən əvvəlki bastdan əmələ gələ bilir, bast isə öz-özlüyündən ola bilir, bunun səbəbi İlahi rəhmətin genişliyidir. Deməli, hər qabdı bir bast izləməlidir, hər bastı qabdın izləməsi isə şərt deyil. Buna misal olaraq, özlərinə əzab verdikdən sonra Allahın bəndələrinə mərhəmət edəcəyini göstərmək olar.

**Əl-Hafiz** – qoruyan, mühafizə edəndir. O, çox mühafizə edəndir. Varlıqları məhv olmaqdan mühafizə edir [15, v. 280b]. Əl-Hafiz bəndəsi üçün rəhmətini mühafizə edən və nemət verən deməkdir. Bununla yanaşı, O, mədumun (yeraltı dünyanın) yoxluğunu, mövcudun mövcudluğunu mühafizə edəndir. Qorumaq üçün görmək lazımdır, görmək isə qorumağı





tələb edir. Bu səbəbdən, hər ikisi varlığın ətrafında dövr etdiyi qütbdür. الكون əl-kövn iki göz: Haqqın gözü və xəlqin gözü ilə qorunmuşdur. Buna görə Haqq elmin sirrinə yiyələnmək üçün özlərinə varlığın davamlılığını verər, xəlq haqqında isə onların varlıqlarını mühafizə edər. Çünki "məlum" alim üçün elmi qoruyar, elm isə "məlum"unun hallarının xüsusiyyətlərinə görə haldan-hala düşməsi ilə dəyişər.

**Əl-Muqit** – yaşamaq üçün qidaları yaradan, qidanı müəyyən bir ölçüyə görə təqdir edən deməkdir. O, maddi və mənəvi qidaların yaradıcısıdır [15, v. 280b-281a]. Bu adın iki mənası vardır: "iktidar" və "ruzini çatdıran". Buna görə, "əl-Muqit" ruziləri yaradan və onları hərənin öz ölçüsünə görə çatdıran deməkdir. Misal kimi, bədənlərə qidanı, müşahidə və iman əhlinin qəlblərinə də mərifəti çatdırmağı göstərmək olar.

القوت - "əl-qut", yəni "qida" sözü qidalananların fiziki olaraq ayaqda qalmasını müəyyən ölçüdə təmin edən şey mənasındadır. Qida müəyyən ölçüdə verilər və həm ülvi, həm də sufli ola bilər. Qidanın ən ülvi mərtəbəsi elm, ən aşağı mərtəbəsi isə bəşəri fikirlərdir. Bunların arasında suri və mənəvi xəzinələr yerləşir. Bütün xəzinələr Allah qatındadır. Qidanın ən alisi aləmlərdən səma əhlinin qidası, ən zəifi isə ərz (yer) əhlindən ariflərin qidasıdır.

**Əl-Bais** – göndərən, oyandıran və diriləndir. Yəni yaradılmışları diriləndən, öldükdən sonra qiyamət günü onları canlandırandır. Həmçinin O, ümmətlərə elçi (rəsul) göndərəndir [15, v. 281a]. "Əl-Bais" adı ümumi mənada mümkünləri yoxluqdan varlığa, varlıqdan yuxuya və yuxulu vəziyyətdən bərzəxə, bərzəxdən də həşrə (qiyamətə) göndərəndir. Xüsusi mənada isə ümmətlərə (xalqlara) peyğəmbərlər göndərən deməkdir. Allah-Təala mümkünləri yoxluqdan varlığa göndərdiyi vaxt məxluqatın əslinin tələb edildiyi izafətin şərəfi səbəbi ilə insanı yer üzünün xəlifəsi etmişdir. Qeyd olunan bu izafət Allahın insana ruh üfləməsi və bədən nahiyələrinin idarəçiləri, zahiri və batini orqanlarının və qüvvələrinin rəayəsi (fənləri) üzərində hökm sahibləri olmalarıdır. Beləliklə, Allah nəfəsləri məliklər (hökmdarlar) etmiş və onlara aləmlərdən heç kəsə verilməyən şeylər verilmişdir. Heç kəsə verilməyən şeylər dedikdə, orqanların itaət etməsini hökm qoyması nəzərdə tutulur. Çünki nəfəslər əmr verdikdə orqanlar onu yerinə yetirməlidir.

**Əl-Mubdi** – kainatı yoxdan var edən, izhar və inşa edən, icad etməklə məxluq yaradandır. O, əvvəllər olmayan nümunələrdən başlayaraq hər şeyi yaradan və icad edəndir [15, v. 281b]. Buna görə الْمَبْدَ "əl-məbdə" (yer) ilk rütbə olan "əl-Mucid"in rütbəsi, ikinci rütbə isə mümkünə aid son rütbədir. Mümkünün varlıq baxımından əsla birinci rütbədən payı olmaz, ancaq başqa rütbə ona aid ola bilər. Allah isə onunla bərabərdir, buna görə də mümkünlərdən varlıqda əvvəl olan və sonra gələn (axır) rütbə baxımından bərabərdir, çünki axır bütün mümkünləri əhatə edir. "Əl-Mubdi" mümkünləri öz mərtəbələrində izhar edəndir, başlanğıcda və sonda imkan növünün əyanlarından hər birinə "məbdə" hökmünə sahibdir. *"Məbdə - sufi anlamında varlığın başlanğıc mərhələdə olan ümumi adlarıdır. Varlıq aləmi məbdə - başlanğıc adlardan yaranır, gerçək aləmdə zahir olur və sonda əslinə qayıdaraq adlar şəklində qalır"* [12, s.119]. Belə olan halda "əl-Mubdi" həmişə bu xüsusiyyətdədir, çünki davamlı olaraq əyanını yaratmaqla varlıq mərtəbələrində hüdudlarını qoruyur.

Bütün ilahi adların "əl-Mubdi" adının icad etdiyi şeylərlə bir hökmü olduğu kimi, bu adın da bütün ilahi adlarda bir hökmü var. Xəlq etdiyi hər şeydən mütəal olan "əl-Mubdi" dünya və axirətdə Yaradandır.

**Əl-Muid** – عود "aud, avd" (təkrarlamaq) sözündən əmələ gələrək öldükdən sonra dirildən mənasını verir. Bu adın hikməti "Yunus" surəsi 4-cü ayədə açıqlanaraq buyurulur: **"...O, insanları yoxdan yaradır, sonra iman gətirib yaxşı işlər görənləri ədalətlə mükafatlandırmaq üçün yenidən dirildir..."** [14, s.175]. Sədrəddin əl-Konəvi ayədəki "yenidən dirildir" sözünü belə şərh etmişdir: *"Xəlq etmək baxımından feilin eynini geri qaytaran deməkdir, çünki aləmdə təkrarlanan heç bir şey yoxdur. Hər şey, meydana gələn misallar, var olan əyan və yeni xəlq olandan mövcuddur. Allah hər şeyi xəlq etdikdən sonra başqa bir məxluqa/yaratmağa dönər, yoxsa varlıqdan gedən şeyin eynini geri gətirməz. "Yunus" surəsində Allah məxluqu deyil, feili nəzərdə tutmuşdur, çünki məxluqun eyni varlıqdan zail olmamışdır ki, Allah da onu yeniləsin. Zahir əhlinin axirət həyatlarında nəfəslərin və cisimlərin yenilənməsi, yenidən dirilməsi ilə əlaqədar söylədikləri fikir, əhli-kəşfə görə, bu yeniləmə deyildir, o, sadəcə dünya həyatından bərzəxə, bərzəxdən məhşərə, məhşərdən də Cənnətə və ya Cəhənnəmə ardıcıllığından ibarətdir. Allah davamlı olaraq xəlq edir və xəlq etməsinə qayıdar. Haqq - "əl-Mubdi" və "əl-Muid"dir, hər şeyi xəlq edən və özünün şanini yeniləyəndir. Yeniləmə hökmü barəsində hökm verilən şeydə deyil, hakimin feilində və hökmündə baqidir"* [1, v. 141a].

**Əl-Muhyi** – həyat verən, ölüləri dirildəndir. İlahi həyatın sirri bütün mövcudlara sirayət edərək Allahın həyatı ilə mövcud olmuşdur. Buna görə bəzi mövcudların canlılığı baxanlara görünürsə, həyatları dünya həyatında peyğəmbərlər və övliyalar istisna olmaqla, insanlara görsənməz. Bu övliyalar hər şeydə olan həyat sirrini özləri üçün kəşf edən insanlardır. Hər şeyə həyatın sirayət etməsi ilə hər şey, xəlq olunanların sənasını həmd edərək natiqdirlər, sadəcə diri olanlar həmd edə bilər.

**Əl-Mumit** – əcəli çatanı haqqa qovuşduran deməkdir. Varlıqları dünya yaradılışından bərzəxə, bərzəxdən axirət aləminə keçirən mənasındadır. Ölüm – eynin dünya mərtəbəsindən başqa bir mərtəbəyə keçməsidir. Ruh vilayətinin Allahın bu aləmdəki valilik dövründə özünü idarə etməklə təyin olunduğu bu cismani şəhərdən çıxarılıb, keçid etdiyi aləmdən başqa bir vilayətin onun üçün təyin olunmasıdır. Ölü insan, hərəkət etməsə də, özlüyündə diridir. Çünki ölü hal ilə təsərrüf edər, təsərrüf isə dirilərin onu kəfənləməsi və dəfn işlərini yerinə yetirmələridir. Əsl ölü Allah həyatının müşahidəsini və feyzinin sirayətini özündə görməyən şəxsdir. Bu müşahidə olmasa, o, həyatı özündə nisbət edər, çünki Allah belə bir pərdəli insan üçün ölmüşdür. Beləliklə, cahil və pərdəli insan əsl ölüdür, ölü isə muhaqqiqə görə diridir.

*"Əl-Muhyi" və "əl-Mumit" hər ikisi Yaradandır. Lakin "əl-Muhyi" həyatı, "əl-Mumit" isə ölümü yaradır. Necə ki, Allah-Təala "əl-Mülk" surəsinin 2-ci ayəsində buyurur;* ***"...ölümü və həyatı yaradan Odur..."*** [14, s.580; 3, v. 281b].

**Əl-Qəyyum** – bütün əşyanın ancaq Onun varlığı ilə mövcud olması deməkdir. "Əl-Qəyyum" öz nəfsi ilə var olan və başqalarını da yaşadandır. O, daim hər şeyi (var) mövcud edəndir. القيوم، القيام، القيّم [Əl-Qəyyum, əl-Qiyam, əl-Qəyyim] (daima var olan, etibarlı, sirdaş) - hamısının mənası birdir [15, v. 281b]. Bəzi təriqət alimləri "qəyyumluq" xüsusiyyəti Allaha məxsus olduğu üçün onu mənəviləşdirməyi qadağan etmişdilər. Əhli-kəşfə görə isə, bu sifət mənəviləşmək və vəsflənmək məsələsində ən haqqı olan keyfiyyətdir. Bunun səbəbi bu sifətin hər şeyə sirayət etməsi və kövni həqiqətlərin və ilahi adların bununla qaim olmasıdır (durmasıdır). Bu xüsusiyyət mənəvi-ülvi həqiqətlərə sirayət edir. Əgər sirayət etmiş olmasaydı, varlıq vücudları sabitlik hallarından xaricə çıxa bilməzdilər.

**Əl-Muqəddim** - önə alan, qabağa çəkən deməkdir. O, sevdiklərini xidmətdə önə çəkən







və onları günah iş tutmaqdan çəkindirəndir. O, istədiyi insanı istədiyi insanın önünə keçirir. Vücudun iki rütbəsi vardır: birincisi, feili və təsir rütbəsi, ikincisi isə qəbul rütbəsidir. Mümkünlər qəbul rütbəsinə sahibdirlər. Kövn mərtəbəsində bütün məxluqlar eyni dərəcədədirlər. Bəzi mümkünlər xəlq olmada eyni dərəcədə olsalar da, bəzilərinin önünə keçirlərsə, bu vəziyyət onların peyğəmbərlik, övliyalıq kimi xüsusiyyətlərindən irəli gəlir. Bu xüsusiyyət onun digərinin qabağına keçməsinə səbəb olur.

**Əl-Muəxxir** - istədiyini gecikdirib, arxada qoyan deməkdir. O, istədiyi insanı başqasından geridə qoyur. Muxlis səadət mərtəbəsində ikinci rütbənin sahibidir, birinci rütbə isə xalis din sahibinə aiddir. Onlar dünyada tanınmasalar da, qiyamət günü peyğəmbərlərə qibtə edən insanlar kimi tanınacaqlar. Onlar "əl-Muqəddim" adının mərtəbələrindən kömək istəyən insanlardır, buna rəğmən muxlislər "əl-Muəxxir" adının mərtəbələrindən kömək alan insanlardır. "Əl-Muqəddim" və "əl-Muəxxir"in mənaları yaxınlaşan və uzaqlaşandır. Varlığa lazım olanlardan birini o birilərin qarşısına qoyandır. Məsələn, peyğəmbərləri və bəndələrindən salehləri digərlərinin önünə qoyandır. Və ya bədənin yuxarı ətraflarını xidmət etmək üçün aşağı ətrafların qarşısına qoyandır. Və ya əsrlərin bir-birini əvəz etməsi üçün zamanı önə qoyandır [15, v. 282a].

**Əl-Vali** - kainatı tək idarə edən, hökm verən deməkdir. "Əl-Vali" Ona aid olanların məlikidir [15, v. 282a]. O, hökm verər, hökmünü əta edər (ehsan) və adil olar. İstədiyini ehsanı ilə irəli qoyur (qabağa çəkir), istədiyini də ədaləti ilə arxada qoyur. Vali hökm verən və vilayətə mənsub imamdır. Bu vəzifənin sonsuz mərtəbələri var. Ən alisi imaməti-kübra (böyük imamlıq) və vilayəti-üzma (ən böyük vəlilik) hər şeyin (məlakutun) idarəsinin sahibinin rütbəsidir. Ən aşağı rütbəsi isə bəndənin öz orqanizminə mələklərinə vali olmasıdır. Bu iki dərəcə arasında sonsuz dərəcələr yerləşir. Buna görə də hər valinin mülkü vəziyyətinin ehtiyacına görə ya genişlənər, ya da daralar.

Təkəbbür, lovğalıq və öyünmək bu mərtəbənin tələblərindəndir, bu xüsusiyyətlər isə dərmansız xəstəliklər olduqları üçün Allah bu xəstəliklərə şəfalı dərman nazil etmişdir. Bu, Allahın Kəbəyə səcdə etməyi əmr etməsidir. Bu səbəbdən, kim bu dərmanı diqqətlə içməyə davam edərsə, bu xəstəlikdən sağalar və öyrənər ki, valiliyin ipləri istədiyini həyata keçirən hikmət sahibi əl-Valinin əlindədir.

**Məlikül-mülk** – kainatın tək sahibi deməkdir. O, öz mülkündə gəzintisini həyata keçirəndir [4, v. 11a]. Öz mülkündə xəlq etmək, məhv etmək, yaşatmaq kimi mövqelərini yerinə yetirən və hökmləri mülahizə və izah olunmayandır [15, v. 282a].

**Əl-Cami** – gözəllikləri zatında, bəndələrini axirətdə toplayan, varlığı ilə bütün mövcudları özündə cəm edən deməkdir. O, qiyamət günü yaradılmışları toplayandır. "Əl-Cami" ləyaqətini heç bir həmd və səna təsvir edə bilməyəndir [15, v. 282a]. Bu adın davamlı toplamaq xüsusiyyətləri vardır, sahib olduğu yeganə hökm də toplamaqdır. Bütün var olanların mərtəbələrinin fərdləri, Allahı həmd etmək üçün cəm olanlar bu adın hökmünün təzahürüdür. Əgər cəm olmanın cəm səlahiyyəti olmasaydı, ad və sifətlərinin hökmlərinin çoxluğu zühur etməzdi. Cəm kövn mərtəbəsini əhatə etdiyi üçün vücudun özüdür. Kövn başqasının gözündə fərqli zühur etsə də, cəmin özüdür.

**Əl-Mani** - pisliklərə mane olan, ehsan əta edən deməkdir. O, əhlini istədiyinə itaət etməsinə mane olan, onları qoruyan və kömək edəndir. Onu yaratmaq istəyənə mane olur və istədiyini verir. O, bədənlərdə məhv olma səbəblərini və dinlərdə nöqsanları aradan qaldırandır [15, v. 282a]. Bu adın hökmü imkan mərtəbəsində yerləşir. Çünki mani istedad və xüsusiyyətinin tələb olunmadığı

şeyi qəbul etmədiyi üçün mümkünün eynidir. Allah hər hansı bir şeyə mane olarsa, bu sadəcə bəndənin möhtaclığını izhar etməsi üçündür və lütf qapılarının açarıdır. Onda Allah mani olmaqla bu açarı bəndəsinə vermişdir. "Əl-Mani" adı digərini verməklə mani hökmünü tələb edir.

**Əd-Darr** – istədiyinə əsassız şey ilə zərər verən deməkdir. Əd-Darr xəlq olunmuşlardan istədiyinə zərər vurandır [15, v. 282a]. O, istədiyinə uğursuzluqla zərər verər, istədiyini məhrumiyyətlə imtahan edər. Bu adın sirlərinin bir incəliyi vardır, bunun səbəbi "əd-Darr"ın hökmünün iki mərtəbəyə ehtiva etməsi və bəndə ilə Allahın şərikliyidir. Bu şərikliyin Allah ilə bəndə arasında olmasının səbəbi digər xəlq etdiklərinin əksinə, insanın niza edici (münaqişəli) olmasıdır. Buna görə də Tanrılıq iddiası varlıqlardan təkcə insana xasdır. Allahın bu münaqişəni izhar etməsinin səbəbi yalnız gizli xəzinənin (kənzi-məxfinin) zühur etməsidir. Bu isə Allahın bütün ad və sifətləri ilə bəndənin qabiliyyət aynasında zühur etməsidir ki, bu da faydanın özüdür. Belə olan halda Allah, fayda verərkən "əd-Darr"dır.

**Ən-Nəfi** - istədiyinə fayda verən şeyləri yaradan, istədiyinə istədiyi şey ilə ehsanında fayda verəndir. O, faydanı, zərəri, xeyiri və şəri xəlq edəndir [15, v. 282a-282b]. Bu adın hökmünün zühuru bəzən yalnız əsassız bir şeyin silinməsi, bəzən tələb sahibinin qayəsinə çatmağı ilə həyata keçə bilər. Bəzən də hər ikisi ilə birlikdə ola bilər. Bu adın hökmünün əsərlərinin böyük hissəsi tabe olanlarda zühur edərsə, bu ilahi ikramı peyğəmbərlər vasitəsilə qəbul edəndir. Çünki ikram ya peyğəmbərlərin vasitəsi ilə olur, ya da birbaşa olur. Ona görə bu növdə olan birinci ikram səhih bir mizana möhtac olan bir təhlükə üzərindədir, bu da Allahın peyğəmbərlərinin lisanı (dili) ilə yaranan şəriətdir.

**Əl-Bədii** - misilsiz və bənzərsiz yaradan deməkdir. "Əl-Bədii" - ondan əvvəl olmayan və onun misli olmayandır və Allah subhanəhu müəyyən olunanlarda mütləq bədiidir [4, v. 12a]. Bu adın hökmləri ümumi olaraq xəyal mərtəbəsində zühur edər. Çünki bu qüvvənin xüsusiyyəti mənaları xəlq etmək və onları mənalı simaya keçirmək üçün söz simalarına endirməkdir. المبدع (əl-Mubdi-Xaliq) feilindən əmələ gəlmişdir. Onun zatının heç bir şeyə bənzəri yoxdur. Çünki Allah mütləqdir. Onun sifət və əfallarına (hərəkətlərinə) uyğun heç nə yoxdur" [15, v. 282b].

**Nəticə**

İslam alimləri tərəfindən kəlam elmində Allahın ad və sifətləri müxtəlif növ və xüsusiyyətlərə ayrılmışdır. Azərbaycan əlyazmalarında Allahın gözəl adlarından bəhs edən əsərlər Əbu İsa ət-Tirmizinin "Əsmaul-husna" təsnifatı əsasında şərh edilmişdir. Ona görə də bu təsnifat əsasında Allahın sifətləri üç hissəyə: zatı adlar, kövni – yaradılışla, varlıqla bağlı adlar və insanla əlaqəli adlara ayrılaraq tədqiq edilmişdir. Əsmaul-husnaya daxil olan Allahın gözəl adlarının ikinci hissəsi kövni adlar adlanır və onlar Allahın xəlq etmək, yaratmaqla və varlıqla bağlı adlarıdır. Allahın insanla əlaqəli adları isə Allahın gözəl adlarının üçüncü hissəsini təşkil edir. Əsmaul-husnaya daxil olan Allahın bütün ad və sifətləri Allahın təkliyini bildirir. "Əl-Haqq", "əs-Səmi", "əl-Bəsir", "əl-Alim" kimi Allahın əzəli və əbədi sifətləri onların əksinin Allahda olmasını inkar edir. Allah əzəldən kamil, qüdrət, izzət, ehtiyacsızlıq və s. sifətlərə malik idi, onların əksi acizlik, zəiflik, ölüm kimi xüsusiyyətlər Allahdan uzaqdır. Allahın zatı adları Onun kövni və insanla əlaqəli adlarından əvvəl gəlir və əzəlidir. Çünki Allahın zatı adları heç nədən asılı olmayaraq mövcuddur, lakin kövni və insanla əlaqəli adlarının mövcudluğu üçün məxluqat lazımdır. Belə ki, Allah "ər-Rəzzaq"dır - ruzi verəndir, lakin əvvəl məxluqu xəlq edir, sonra isə ona ruzi verir. Bu səbəbdən Allahın kövni və insanla əlaqəli adları zatı adlar kimi əzəli və əbədi hesab olunmur.







# ƏDƏBİYYAT


1. Əlyazmalar İnstitutu. A-409, v.90b-167a. القونوى، ص. شرح الاسماالله الحسنى / ص
2. Əlyazmalar İnstitutu. B-4748, 79b-85b. شرح قصيدة اسماء الحسنى
3. Əlyazmalar İnstitutu. B-4751, v. 178b-181b. شرح اسماء الحسنى
4. Əlyazmalar İnstitutu. B-2195, 2b-11a. شرح اسماالله.
5. Рахнулла, Е. Сущность и типы атрибутов Аллаха в богословии в рукописных фондах Азербайджана // Вестник Бакинского Университета, серия сосиально политических наук, № 4, 2020, с. 38-47.
6. Kərimov, E. Əsmayi-hüsna (Allahın gözəl adları). Bakı: İpək yolu, 2012, 443 s.
7. Qənbəri, H. İsmi Əzəm və Əsmaül-hüsna duaları. Tərcümə edən: Ə. Nur, H.Qənbəri. Bakı: Kövsər", 2014, 111 s.
8. Müqtədiri, M. Əsmaul-hüsna  Quranda Allahın gözəl adları. Bakı: Nurlar, 2013, 158 s.
9. Çelebi, İ. Sıfat. Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte]. İstanbul: Türkiye Diyanet Vakfı yayınları, c. 37, 2009, s. 100-106.
10. Üseymin, M.S. Allahın sifətlərinə və ən gözəl adlarına dair ideal qaydalar. Bakı: Qızıl Şərq, 1996, 69 s.
11. Topaloğlu, B. Esma-i hüsna. Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte] / İstanbul: Türkiye Diyanet Vakfı yayınları, c. 11, 1995, s. 404-418.
12. Göyüşov, N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı: Tural-Ə, 2001, 240 s.
13. İslam əqaidi və kəlam elminə giriş / BİU Zaqatala şöbəsi. Bakı: 2007, 167 s.
14. Qurani-Kərim. Tərcümə edənlər: Z. Bünyadov, V. Məmmədəliyev. Bakı: Azərnəşr, 1991, 710 s.
15. Əlyazmalar İnstitutu. B-2872, v.278b-284b. 1336/1724, الشيرازى، ص. تفسير القران / ص. الشيرازى






Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı